# BAKI SLAVYAN UNİVERSİTETİ
# TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ HAQQINDA
# ƏSASNAMƏ

**Ümumi müddəalar**

Tələbə Elmi Cəmiyyəti (bundan sonra - TEC) Bakı Slavyan Universitetinin müxtəlif fakültələrində təhsil alan, elmi tədqiqat və elmi-təşkilati işlərində fəal iştirak edən ali təhsilin bakalavriat və magistratura pillələrində təhsil alan tələbələrin könüllü ictimai təşkilatıdır.

Tələbə Elmi Cəmiyyəti Bakı Slavyan Universitetinin rektoruna tabedir, onun fəaliyyəti Elm və innovasiya məsələləri üzrə prorektorun fəaliyyət sahəsinə aid edilir.

Bakı Slavyan Universitetinin Tələbə Elmi Cəmiyyəti ildə bir dəfədən az olmayaraq universitetin Elmi Şurası qarşısında hesabat verir.

TEC öz fəaliyyətində elm və təhsil sahəsində müvafiq normativ hüquqi aktları, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, "Ali təhsil müəssisəsində təhsilalanların elmi tədqiqat işinin təşkili haqqında Əsasnamə"ni, universitetin Nizamnaməsini, Azərbaycan Respublikası Elm və Təhsil nazirinin 27 iyun 2014-cü il tarixli, 752 nömrəli əmri ilə təsdiq edilmiş «Tələbə Elmi Cəmiyyəti haqqında Nümunəvi Əsasnamə»ni və universitet Elmi Şurası və rektorluğunun müvafiq əmr və sərəncamlarını rəhbər tutur.

**TEC-in məqsəd və vəzifələri**

TEC-in əsas məqsədi universitetdə müxtəlif ixtisaslar üzrə mütəxəssis hazırlanmasının keyfiyyətinin yüksəldilməsinə xidmət edən elmi və təşkilati tədbirlərin həyata keçirilməsi, təhsilalanların universitetin elmi potensialından daha səmərəli istifadə etmələri, təhsilalanlarda müstəqil elmi təhlil aparmaq və həmin təhlilin nəticələrini ümumiləşdirmək, alınan nəticələri müasir elmi standartlara uyğun tərtib etmək bacarığının formalaşdırılması və inkişaf etdirilməsi, onların elmi səylərinin müasir sosial-iqtisadi şərait üçün daha aktual olan istiqamətlərə yönləndirilməsindən ibarətdir.

Təhsilalanların könüllü birliyi olaraq, TEC-in qarşısında aşağıdakı vəzifələr durur:

- istedadlı tələbələrin məqsədyönlü şəkildə elmi tədqiqat və elmi-təşkilati işlərə, yüksək texnologiyaların mənimsənilməsinə cəlb edilməsi, onların elmi-tədqiqat fəaliyyətinin təşkili, bu fəaliyyətin nəticələrinin kütləviləşdirilməsi üçün lazımi şəraitin (elmi konfranslar, müxtəlif nəşrlərin təşkili) yaradılması;

- təhsilalanların elmi-tədqiqat və təhsil fəaliyyətlərinin real təcrübə ilə həmahəngliyinin təmin edilməsi üçün elmi yaradıcılığın müxtəlif formalarından istifadəyə nail olunması, gənclərin təkcə tətbiqi deyil, həm də fundamental tədqiqatlara olan marağının stimullaşdırılması;

- təhsilalanların elmi-tədqiqatların aparılması metodikasına və texnikasına yiyələnmələri üçün təcrübəli alim və tədqiqatçıların rəhbərliyi altında məqsədli elmi seminarların, təlimati məşğələlərin təşkil edilməsi;

- tədqiqatçılıq fəaliyyətinin köməyi ilə tələbələrdə seçdikləri peşəyə yaradıcı münasibətin formalaşdırılması;

- elmi və elmi-pedaqoji kadr hazırlığı sistemi üçün perspektivli gənclərin seçilməsi və onların tədqiqatçılıq fəaliyyətinə hazırlanması;

- digər ali təhsil müəssisələrinin TEC-ləri ilə əməkdaşlığın həyata keçirilməsi, tələbə elmi tədqiqat işinin təşkilinə dair mütərəqqi forma və metodların tətbiq edilməsi;

- müxtəlif səviyyəli tədbirlərin - elmi seminar və konfranslar, tələbə elmi işlərinə, habelə kurs, buraxılış, dissertasiya işlərinə baxış müsabiqələri, müxtəlif ixtisas və fənlər üzrə olimpiadalar, diskussiya klubları, simpoziumlar, tanınmış alimlərin seminar və mühazirələrinin dinlənilməsi və s. - təşkili və keçirilməsində tələbələrin iştirakının təmin edilməsi;

- tələbələrin elmi mərkəzlər, texnoparklar, ideya inkubatoru və s. müəssisələrdə aparılan işlərə (o cümlədən ödənişli) cəlb edilməsi;

- universitetdaxili və ali məktəbdənkənar elmi tədbirlər haqqında məlumatların toplanılması, yayılması və ali təhsil müəssisəsinin internet səhifəsində yerləşdirilməsinin təşkil edilməsi.

**TEC-in strukturu**

TEC-in strukturu, üzvlük qaydaları və ayrı-ayrı struktur vahidlərinin formalaşdırılması prinsipi, fəaliyyətinin konkret şərtləri "Ali təhsil müəssisəsində təhsilalanların elmi tədqiqat işinin təşkili haqqında Əsasnamə"yə, habelə Bakı Slavyan Universitetinin Nizamnaməsinə uyğun olaraq müəyyən edilir.

**TEC-in strukturuna aşağıdakılar daxildir:**

- kafedraların nəzdində fəaliyyət göstərən tələbə elmi dərnəkləri;
- elmi dərnəkləri profil üzrə birləşdirən gənc tədqiqatçılar birliyi (bölmələri);
- kurslar üzrə təhsilalanların elmi işinə cavabdeh olan TEC-in kurs bölmələri;
- fakültə TEC, BSU-nun Məktəb-lisey kompleksi şagird elmi cəmiyyəti Şuraları.

Müxtəlif fakültə və səviyyələrdə təhsil alan tələbələrin və gənc alimlərin elmi fəaliyyətini əlaqələndirmək məqsədi ilə Universitet Tələbə Elmi Cəmiyyəti sədrinin yanında əlaqələndirmə şuraları yaradıla bilər.

**TEC-in işinin təşkili**

Tələbə Elmi Cəmiyyətinin ali orqanı TEC-in konfransıdır. TEC-in yaradılması və yenidən təşkili TEC konfransının qərarı əsasında həyata keçirilir. Konfranslararası müddətdə TEC-in fəaliyyətinə rəhbərlik konfransda seçilən TEC-in Şurası tərəfindən həyata keçirilir.

TEC-in konfransı ildə bir dəfə TEC-in iş planına uyğun olaraq çağırılır.

TEC-in konfransı TEC üzvlərinin yarıdan çoxunun iştirak etdiyi halda səlahiyyətli hesab edilir. TEC Şurasının və ya TEC üzvlərinin 50 faizinin qərarı əsasında növbədənkənar konfrans çağırıla bilər.

TEC konfransının qərarları gizli və ya açıq səsvermə yolu ilə iştirakçıların səs çoxluğu ilə qəbul edilir.

Universitet TEC Əsasnaməsinin qəbulu, Əsasnaməyə dəyişikliklər və əlavələr edilməsi, TEC Şurası üzvlərinin seçilməsi, TEC-in fəaliyyət planı və proqramlarının təsdiqi TEC konfransının müstəsna hüquqlarına aiddir.

TEC-in Şurası TEC-in idarə olunmasını həyata keçirən və seçkilərarası daimi fəaliyyət

göstərən kollegial orqandır. TEC-in Şurası bütün fakültələr, o cümlədən məktəb-lisey kompleksi Şagird elmi Cəmiyyəti təmsil olunmaqla 10-15 nəfərdən ibarət tərkibdə birillik müddətə seçilir. Şuranın say tərkibi TEC konfransının qərarına əsasən hər bir fəaliyyət ili üçün müəyyənləşdirilir. TEC Şurası səlahiyyətləri çərçivəsində tələbələrin elmi tədqiqat işinin təşkili ilə əlaqədar universitetin qarşısında duran məsələlərin yerinə yetirilməsini təmin edir, bütün işlərin gedişinə nəzarəti həyata keçirir, TEC-in fəaliyyətini planlaşdırır və əlaqələndirir.

TEC-in Şurasına təhsil, elmi tədqiqat və elmi-təşkilati işlərdə aktiv fəaliyyəti ilə fərqlənən gənclər və müəllimlər seçilir.

TEC-in Şurasının sədri Şuranın birinci iclasında onun üzvləri sırasından seçilir və ali təhsil müəssisəsinin TEC-nin fəaliyyətinə növbəti konfransa qədər rəhbərlik edir. TEC-in Şurasının sədri ali təhsil müəssisəsinin Elmi Şurasının tərkibinə daxil edilir.

TEC-in Şurasının sədri TEC-in Şurasının qərarlarının yerinə yetirilməsini təşkil edir və onlara nəzarəti həyata keçirir, Universitet Elmi Şurasının qarşısında TEC-in fəaliyyəti haqqında illik hesabatla çıxış edir və TEC-i etibarnaməsiz təmsil edir.

TEC-in Şurası tədris ilinin yekunlarına görə elmi tədqiqat işində yüksək nəticələr əldə etmiş tələbələrin rəğbətləndirilməsi barədə rektor qarşısında vəsatət qaldıra bilər.

TEC-in fəaliyyəti ali təhsil müəssisəsinin illik tədbirlər planı və özünün iş planı əsasında həyata keçirilir.

Tədris proqramlarına və elmi tədqiqat işlərinə qoyulan tələblərə cavab verən kurs və buraxılış işləri, yaxud TEC-in iş planına uyğun olaraq dərsdənkənar vaxtda yerinə yetirilən tələbə elmi tədqiqat işləri (məqalə, məruzə, tezis) TEC Şurasının qərarı ilə müxtəlif müsabiqələrə və konfranslara təqdim oluna bilər.

Universitet Elmi Şurasının tapşırığına əsasən TEC-in və onun struktur bölmələrinin elmi fəaliyyətini professor-müəllim heyəti sırasından seçilmiş və rektorun əmri ilə təyin edilmiş TEC-in elmi rəhbəri əlaqələndirir.

TEC-in fəaliyyətinə tələbələrin elmi rəhbəri və ya məsləhətçisi olan müəllimlər və elmi işçilər cəlb edilir.

TEC-in üzvlərinin fəaliyyəti kafedra və fakültələrdə yaradılan TEC-in struktur bölmələrində professor-müəllim heyətinin tərkibindən seçilmiş elmi əməkdaşların rəhbərliyi ilə həyata keçirilir.

TEC-in fəaliyyətinin nəticələri hər il TEC-in konfransında təhlil olunur və Universitet Elmi Şurası iclasında müzakirə edilir.

TEC Şurasının sədri və elmi rəhbəri TEC-in qarşısında duran məsələlərin vaxtında və yüksək səviyyədə yerinə yetirilməsinə məsuliyyət daşıyırlar.

### TEC-ə üzvlük qaydaları, TEC-in üzvlərinin hüquq və vəzifələri

Tədris planını müvəffəqiyyətlə yerinə yetirən və fəal elmi tədqiqat işi ilə məşğul olan tələbələr TEC-in üzvü ola bilərlər.

TEC-ə yeni üzvlərin qəbul edilməsi tələbələrin elmi işinə rəhbərlik edən bir müəllimin (elmi dərnəyin və ya gənc alimlər birliyinin rəhbərinin) rəyi əsasında TEC-in fakültə şuraları tərəfindən həyata keçirilir. TEC-ə yeni qəbul olunmuş və ya TEC üzvlüyündən çıxmış tələbələr haqqında məlumat bir həftədən gec olmayaraq Universitet TEC Şurasına təqdim edilir. .

**TEC-in üzvlərinin aşağıdakı hüquqları vardır:**

- TEC tərəfindən keçirilən bütün tədbirlərdə iştirak etmək;
- TEC-in orqanlarının formalaşmasında, konfranslarının işində iştirak etmək;
- TEC-in və onun struktur bölmələrinin fəaliyyətinə dair rəy və təkliflərini bildirmək;
- TEC-in fəaliyyətinə dair informasiya əldə etmək;
- TEC Şurasına seçmək və seçilmək;
- yerli və beynəlxalq qrant proqramlarında iştirak etmək;
- TEC-ə üzvlüyünü öz xahişi ilə dayandırmaq.

**TEC üzvlərinin vəzifələri aşağıdakılardır:**

- Universitetin Nizamnaməsinin və "Ali təhsil müəssisəsində təhsilalanların elmi tədqiqat işinin təşkili haqqında Əsasnamə"nin tələblərinə riayət etmək;
- elmi tədqiqat işinin aparılmasında və tədqiqat metodlarının öyrənilməsində fəallıq göstərmək;
- TEC-in fəaliyyətində və keçirdiyi tədbirlərdə iştirak etmək;
- TEC-in rəhbər orqanları tərəfindən qəbul olunan qərarları yerinə yetirmək;
- təhsil aldığı ali təhsil müəssisəsinin nüfuzunu yüksəltmək.

**TEC-in ali təhsil müəssisəsinin digər struktur bölmələri ilə qarşılıqlı əlaqələri**

Universitet TEC-i:

- Elmi Şuranın elmi katibindən Elmi Şuranın iclaslarında müzakirəyə çıxarılacaq sənədlərin təqdimolunma tarixi haqqında məlumat alır;
- elmi hissədən (elmi tədqiqatlar və innovasiyalar şöbəsindən) universitetdə və digər təşkilatlarda keçiriləcək elmi tədbirlər haqqında məlumat, elmi tədbirlərin keçirilməsi və kargüzarlığın aparılmasına dair metodiki göstəriş və təlimatlar alır;
- elmi tədqiqatlar və innovasiyalar şöbəsinə TEC-in elmi işləri və tədbirlərinin illik tematik planını, habelə keçirilmiş tədbirlərin nəticələri haqqında hesabatın nüsxəsini təqdim edir;
- TEC-in illik tematik tədbirlər planına daxil edilmiş maliyyə xərcləri tələb olunan tədbirlərin xərclər smetasını tərtib edir və Elm və innovasiya məsələləri üzrə prorektor tərəfindən təsdiq edildikdən sonra mühasibatlığa təqdim edir;
- universitetin müvafiq şöbə və qurumlarından başqa ali məktəblərdə, o cümlədən xarici ölkə universitetlərində gerçəkləşdirilən elmi proqramlar haqqında məlumatlar alır, digər təşkilatlar tərəfindən keçirilən elmi tədbirlərdə və müsabiqələrdə TEC-in iştirakı haqqında məlumat təqdim edir;
- TEC-in iş planı barədə Tələbə Şurasını məlumatlandırır;
- elm və təhsil məsələlərinə dair birgə ictimai aksiyalarda iştirak edir,
- gerçəkləşdirdiyi elmi-tədqiqat proqramları, layihələr, elmi konfranslar və s. haqqında universitetin saytında məlumatlar yerləşdirir, adı çəkilən şöbələr vasitəsi ilə həmin informasiyanın tərəfdaş qurumlara çatdırılmasını təmin edir;
- fakültə Elmi şuralarından və dekanlıqlardan elmi tədqiqat proqramlarında iştirak haqqında təklifləri, elmi tədbirlər planlarını və TEC-in fəaliyyətinə dair qərarları əldə edir;
- TEC-in tədbirlər planını, mükafatlandırmaya təqdim olunan tələbələrin siyahısını, fakültə TEC üzvlərinin elmi işi haqqında hesabatı nəzərə alınmaları üçün həmin strukturlara təqdim edir;
- kafedra və elmi tədqiqat laboratoriyalarından TEC-in elmi tədqiqat proqramlarında, elmi tədqiqat işləri planının formalaşdırılmasında iştirakına dair təkliflər alır;
- həmin strukturlarla birgə tələbə elmi dərnəklərinin (gənc alimlər birliyinin) iş planını işləyib hazırlayır;
- universitetdənkənar təşkilat və müəssisələrdən informasiya və metodiki materiallar əldə edir, öz fəaliyyəti haqqında informasiya və reklam xarakterli materialları təqdim edir.
- təhsilalanların elmi tədqiqat işinin maddi-texniki bazası kimi universitetin müvafiq imkanlarından istifadə edilir. Elmi tədqiqat işlərində iştirak edən tələbələr universitet kafedralarının, elmi-tədqiqat laboratoriyalarının avadanlıqlarından istifadə edirlər.
- TEC-in fəaliyyəti universitet Nizamnaməsinə uyğun olaraq müəyyən edilən müxtəlif mənbələrdən, eləcə də müxtəlif qrantlar hesabına maliyyələşdirilə bilər.
- Tələbələrin elmi tədqiqat işlərinə ayrılmış vəsaitlərin xərclənməsinə nəzarət rektorluq tərəfindən həyata keçirilir.

Universitetdə təhsil alan tələbələrin elmi fəaliyyətini stimullaşdırmaq və tələbə elmi-tədqiqat layihələrinin yerinə yetirilməsini təmin etmək məqsədi ilə TEC qrant müsabiqələrini

keçirilməsi ilə bağlı təşəbbüs qaldıra bilər. Bu cür layihələrin maliyyələşdirilməsi universitetin daxili imkanları, Elm və Təhsil Nazirliyi və digər dövlət və qeyri-hökumət qurumları tərəfindən ayrılacaq vəsait hesabına həyata keçirilə bilər

**TEC-in kargüzarlığı**

TEC-in kargüzarlıq fəaliyyəti dedikdə onun işinin məzmunu ilə bağlı sənədləşmələrin aparılması başa düşülür. Bu sənədlər aşağıdakılardır: müvafiq normativ hüquqi aktlar, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və universitet rəhbərliyinin tələbələrin elmi işinə dair əmr və sərəncamları, TEC-nin Əsasnaməsi, TEC-in illik iş planları və hesabatları, TEC iclaslarının protokolları, elmi konfransların sənədləri və materialları (təşkilat komitələri, hazırlıq planları, məruzələrin tezisləri, iclas protokolları, konfransın nəşr olunmuş materialları və s.), ən yaxşı tələbə elmi-tədqiqat işi, qrant və s. müsabiqələrin keçirilməsi haqqında sənədlər və fotoşəkillər (işlərin siyahısı, annotasiyalar, rəylər, qərar, mükafatlandırma və s.), TEC üzvləri haqqında məlumat bazası, respublika təşkilatları və digər ali təhsil müəssisələri ilə yazışmalar və s.

TEC-in kargüzarlıq sənədləri **10 il müddətində** saxlanılır.